**Təsdiq edirəm**

**Odlar Yurdu Universitetinin Rektoru**

**prof. Ə.A.Vəliyev**

**25 iyun 2023-ci il**

# Odlar Yurdu Universitetinin Beynəlmiləlləşmə Siyasəti (2022–2027-ci illər)

**Müasir dövrdə beynəlxalq əməkdaşlıqların genişləndirilməsi, inkişaf etdirilməsi və möhkəmləndirilməsi ali təhsil müəssisələrinin beynəlmiləlləşmə siyasətinin əsas prioritet istiqamətlərindən birini təşkil edir.** Bu çərçivədə OYU-nun 2022–2027-ci illəri əhatə edən beynəlmiləlləşmə siyasəti Strateji İnkişaf Planına (SİP) uyğun olaraq hazırlanmış və 25 iyun 2023-cü il tarixində Elmi Şuranın 11 saylı protokolu ilə rəsmi şəkildə təsdiq edilmişdir.

Bu siyasət çərçivəsində OYU 2022-2027-ci ilərdə aşağıdakı əsas hədəflərə fokuslanır:

1. **Xarici tələbələrin cəlb edilməsi üçün yeni strategiya və mexanizmlərin işlənməsi –** universitetin beynəlxalq tələbələr üçün daha cəlbedici hala gətirilməsi və bu tələbələrin sayının 2022-ci illə müqayisədə ən azı ikiqat artırılması məqsəd qoyulmuşdur.
2. **OYU diplomlarının beynəlxalq səviyyədə tanınmasının təmin olunması** –bu istiqamətdə uyğun akkreditasiyalar və tərəfdaşlıqların inkişaf etdirilməsi əsas prioritetlərdəndir.
3. **Tələbə və professor-müəllim heyətinin qlobal təcrübəsinin artırılması və akademik səviyyənin yüksəldilməsi məqsədilə beynəlxalq mobillik imkanlarının genişləndirilməsi** –onların dünya elmi ictimaiyyəti ilə daha sıx inteqrasiyası təşviq olunur.
4. **Universitetin beynəlxalq təhsil proqramlarında iştirak səviyyəsinin artırılması –**bu yolla OYU-nun qlobal ali təhsil məkanında fəal iştirakçılardan birinə çevrilməsi hədəflənir.
5. **Tələbə və müəllim mobilliyinin genişləndirilməsi və xarici universitetlərlə ikili diplom proqramlarının sayının artırılması** –bu sahədə yeni əməkdaşlıq müqavilələrinin imzalanması nəzərdə tutulur.

6. **Tədris və təlim proqramlarının həm Avropa ali təhsil məkanının, həm də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin standart və tələblərinə uyğunlaşdırılması**
7. **Elmi-tədqiqat potensialının beynəlmiləlləşmə istiqamətində səfərbər olunması –** bu məqsədlə beynəlxalq elmi tədbirlərin təşkili, xarici universitetlərdə çalışan alim və tədqiqatçılarla birgə araşdırmalar aparılması və əməkdaşlıq nəticəsində birgə elmi məqalələrin sayının artırılması nəzərdə tutulur.
8. **OYU-nun beynəlxalq reytinqlərdə mövqeyinin yüksəldilməsi məqsədilə** SCOPUS və Web of Science (WoS) bazalarında indekslənən beynəlxalq konfransların təşkili, birgə elmi məqalələrin və monoqrafiyaların nəşr edilməsi planlaşdırılır.

Beynəlmiləlləşmə Siyasəti Odlar Yurdu Universitetinin Elmi Şurasında 25 iyun 2023-ci il tarixli 11 saylı iclasında təsdiq edilmişdir.

**Odlar Yurdu Universitetinin**

**Elmi Şurasının**

**25 iyun 2023-cü il tarixli iclasının 11 saylı protokolundan**

## ÇIXARIŞ

**Elmi Şuranın sədri:** prof. Ə.A.Vəliyev

**Elmi katib:** dos. F.A.Həsənov

**İştirak etdilərlər:** 30 nəfər Elmi Şura üzvü

**Gündəlik məsələ:** Odlar Yurdu Universitetinin 2022-2027-ci illər üzrə beynəlmiləlləşmə siyasətinin müzkirəsi və təsdiqi.

**Eşidildi:** Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:** Prof.Ə.A.Vəliyev Elmi Şura üzvlərini Odlar Yurdu Universitetinin 2022-2027-ci illər üzrə beynəlmiləlləşmə siyasəti ilə tanış etdikdən sonra onun müzakirə edilməsini və təsdiq edilməsini təklif etdi.

Şura üzvləri müzakirə etdikdən sonra qərar qəbul edilir.

**Qərar:** Odlar Yurdu Universitetinin 2022-2027-ci illər üzrə beynəlmiləlləşmə siyasətinin təsdiq edilsin.

**Elmi Şuranın sədri** prof. Ə.A.Vəliyev

**Elmi katib** dos. F.A.Həsənov